«Korporativ Sosial Məsuliyyət- QHT və Biznes əməkdaşlığı Perspektivində» mövzüsünda təlim kursu

22 fevral 2005-ci il tarixində Bakı şəhərində Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkşafı Proqramı- «Azərbaycanda QHT-lərin inkşafı üçün əlverişli hüquqi mühitin yaradılması» üzrə Milli Vəkillik kampaniyası «Korporativ Sosial Məsuliyyət- QHT və Biznes əməkdaşlığı Perspektivində» mövzüsünda təlim kursu təşkil etmişdir.

Tədbiri İqtisadi İnkşaf Nazirliyi Antiİnhisar Siyasəti Departamentinin direktoru Rəhim Hüseynov açmış və Azərbaycanda Vətəndaş cəmiyyətinin inkşafı Proqramının və CRS ofisinin rəhbəri Cək Börn proqram haqqında məlumat verdikdən sonra Transparensi Azərbaycan nümayəndəliyinin icraçı direktoru «Korporativ Sosial Məsuliyyətin mahiyyəti və üstünlükləri haqqında tədbir iştirakçılarına məlumat vermişdir. Məruzələr dinlənildikdən sonra məruzələr barədə müəyyən müzakirələr aparılmışdır.

Tədbir zamanı Azərbaycan Marketinq Cəmiyyətinin icraçı direktoru Sanar Məmmədov « Biznes və QHT-lərin əməkdaşlığı istiqamətində maneələr» haqqında məruzə ilə çıxış etmmişdir.

Tədbirə Rəhim Hüseynovun « Azərbaycanda şirkətlərin sosial məsuliyyəti istiqamətində biznes və QHT-lərin əməkdaşlığı imkanları» məruzəsilə yekun vurulmuşdur. Məruzə bitdikdən sonra biznes və QHT-lərin əməkdaşlığı istiqamətində müzakirələr olmuş və tədbir iştirakçıları dəyərli təkliflərlə çıxış etmişlər.